

■ Fəridə Ləman

## YUXUMA GƏL

*Əziz anam Lətifə xanıma*

Səninlə köç edib dünya gözümdə,
Çiçəyi görmürəm, gülü görmürəm.
Yüzlərlə xatirən boylanır evdən,
Bir canlı - can, deyən dili görmürəm.

Göynəyir gözlərim yaşın içində,
Fikrim duman kimi sürünür canda.
Bir an da yadımdan çıxmırsan, ana,
Varlığın dolanır ruhumda, qanda.

Darxıram, gəl, deyib hey çağırardın,
Bəs indi yuxuma niyə gəlmirsən?!
Mən ölməz bilirdim səni o yurdda,
Ah! Nələr çəkirəm indi bilmirsən.

Nə üzlə mən gedim o ev-eşiyə,
O yurdda yoxluğun yıxacaq məni.
İsti nəfəsilə, gülər üzüilə,
Bağrına kim çəkib sıxacaq məni.

İçimdə bir ocaq qoyub getmisən,
Tüstüsü gözümdən alışıb yanır.
Ovuna bilmirəm, ay canım anam,
Ruhum candan çıxıb səndə dolanır.

Gəl mənim yuxuma, nə olar axı,
Başına dolanım, üzündən öpüm.
Sıxıb əllərini sən adlı qəlbə,
Yolumu gözləyən gözündən öpüm.

## SEVDİYİM VƏTƏN

Mən səni Ana bətnində
Sevmişdim,
Sonra Anamın qucağında,
Böyütdüyü ocağında.
Sonra da Əlifbamda,
Ana dilimdə adını
Dilimə gətirəndə,
Səni ürəyimdə
Ümid kimi bitirəndə.
Böyüdükcə hər yerdə
Səni gördüm -
Atamın şah duruşunda,
Mərd sözündə,
Qartal gözündə.
Nənəmin noğullu əlində,
Anamın şükranlı dilində.
Təbiətin dağlardan əsən
Çiçək qoxulu yelində,
Çayların çoşqun selində
Sevdim Vətəni!
Böyüdüm ev-ev,
Məhlə-məhlə.
Sonra bir məktəb boyda,
Kənd boyda.
Sevdiyim Azərbaycan boyda.
Sevgim də böyüdü
Sevgilim oldu Vətən,
Hər yerdə əlimdən tutan.
Yellənən bayrağımı gördüm,
O yelləndikcə
Obamın, oymağımın varlığını gördüm,
Dünyanın düşmənin başına
Dar olduğunu gördüm.
Vuruldum rənglərin ahənginə-
Mavisinə, yaşılına, alına
Arıların pətəkdə balına,
Lalənin qara xalına.
Üzü haqqa yola alan
Sufi yoluna...
...Gördüm-Vətən deyib
Nəğməylə axan
Güzgülü bulaqları,
Gördüm min-bərəkətli yaylaqları.
Göylərdən yağış, qar ələyən
Buludlu piyalələri.
Şəlalələr gördüm -mirvari gülüşlü,
Qulac hörüklərini dağlardan atan,
Bu gözəlliklər içində
Sabahımızı gördüm sevincə batan
Bax belə sevdim Vətəni!
Qayalarda ağac tək, gül tək bitəni
Anadil quşutək öz sevdasıyla
Gecə-gündüz ötəni.
Belə sevdim Vətəni -
Ömür sürdüyüm ocaq boyda,
Böyüdüyüm qucaq boyda
İçimdə sevgisi ilə nur saçan,
Çıraq boyda.
Milyonların baxışından
İçimə axan işıq boyda,
Üzlərdəki təbəssüm, yaraşıq boyda.
Gördüm onu qalaq-qalaq
Sevda ilə yazılmış kitablarda,
Nəğməli dodaqlarda,
Barlı budaqlarda.
Bu sevdayla yol aldım
Çığırlara, izlərə,
Milyonlara, yüzlərə...
Qalxdım təpələrə,
Oradan qayalara
Qoca dağlara, almaz qaşlı zirvələrə.
Baxdım üzünə qan çəkmiş buludlara,
Uçurumlara, dərələrə,
Nələrə, ah, nələrə
Keçdi gözümdən qanlı tarix,
Şanlı tarix.
Sevdim onu
Qanını torpağına halal edən
Şəhidim kimi,
Azadlığım, əhdim kimi...
Yazılan taleyim, bəxtim kimi.
Bir də cəsədim boyda
Qazılacaq qəbrim kimi.
Sevdim səni, VƏTƏN!

Kaspi.-2018.-31mart.-S.21.